*(Əvvəli ötən saylarımızda)*

# ƏDƏBİYYAT ÇIRAĞI

Vəsait Giriş, "Məhəmməd Tağı Sidqinin həyatı", "Yeni nəslin inkişafında rolu", "Şeir yaradıcılığı", "Nəsr əsərləri", "Mətbuatla əlaqəsi", "Pedaqoji görüşləri və dərslikləri", "Elmə xidmət" və "Nəticə" bölümlərindən ibarətdir.

"Sənətkarın elmi pasportu-27" seriyasında çap olunan kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Akif İmanlıdır.

Çoxuna məlumdur ki, dünyaşöhrətli qazax mütəfəkkiri Abay Kunanbayev Azərbaycanda da çox sevilir, çox tədqiq olunur. Azərbaycanın çox məhşur və görkəmli ziyalıları Abay Kunanbayevin yaradıcılığı haqqında olduqca dəyərli yazılar yazmış, türk dünyasının müqtədir söz ustalarından biri kimi zəngin şəkildə xarakterizə etmişlər. Tək Azərbaycan ədəbiyyatı ilə deyil, bütün dünya ədəbiyyatı ilə maraqlanan İsa Həbibbəyli də bəzi yazılarında Abay Kunanbayevi xatırlamış, eyni zamanda böyük mütəfəkkirin ədəbi irsini tədqiq və təhlil edən ziyalıların müqəddəs işlə məşğul olduğunu qələmə almışdır:

"Azərbaycanda Abay Kunanbayevin həyatı və yaradıcılığına dair əhəmiyyətli tədqiqat əsərləri yazılmışdır. Xalq yazıçısı Mirzə İbrahimovun "Xalqın böyük ədibi» məqaləsi (1977) Abay Kunanbayevin xidmətlərinə Azərbaycandan mütəfəkkir yazıçı baxışının ifadəsidir. Xalq yazıçısı Anar "Ağaclar quruyur qocalar kimi" adlı məqaləsində (2020) Abayın mükəmməl elmi-ədəbi portretini yaratmışdır"(14).

"XX əsr ərzində aparılmış elmi tədqiqatlar, məqalə və kitablar əsasında Azərbaycan Abayşünaslığı formalaşmışdır. Tanınmış Azərbaycan alimlərindən filologiya elmləri doktorları, professorlar Pənah Xəlilov, Məmməd Əliyev, Elman Quliyev, Nizami Tağısoy, Firuzə Ağayeva, Yaşar Qasımbəyli, Salidə Şərifova, Xuraman Hümmətova, filologiya üzrə fəlsəfə doktorları Qulamhüseyn Əliyev, Arif Əmrahoğlu, Turan Teymurov, Eşqanə Babayeva, Fəridə Vəliyeva, Ağahüseyn Şükürov, Mehman Həsənli, Pərvanə Məmmədova və başqalarının tədqiqatlarında Abay Kunanbayevin həyat yolu və ədəbi irsi müxtəlif mövqelərdən təhlil edilib qiymətləndirilmiş, Azərbaycan ədəbiyyatı ilə müqayisələr aparılmışdır"(15,s.12).

Lakin İsa Həbibbəylinin qardaş qazax xalqının ədəbiyyatına, onun dahilərinə olan sevgisi təkcə Abay Kunanbayevlə bitmir. Ədəbiyyat sahəsində çalışanların hamısı bilir ki, İsa müəllim qazax ədəbiyyatının dahilərindən biri Muxtar Auezevun da Türk dünyası üçün nə qədər dəyərli bir mütəfəkkir olduğunu qeyd etmişdir, Nizami Məmmədov Tağısoyun 2019-cu ildə qələmə aldığı "Muxtar Auezovun yaradıcılığı: ənənədən novatorluğa" monoqrafiyasına "Türk dünyası ədəbiyyatının fəxri və qazax ədəbiyyatının görkəmli klassiki" başlıqlı ön söz yazmışdır.

"Qazax ədəbiyyatının inkişafında böyük rol oynayan görkəmli yazıçı və ictimai xadim Muxtar Auezovun adı XX əsr dünya ədəbiyyatının tanınmış klassikləri ilə bir sırada çəkilir. O, yeni dövr qazax ədəbiyyatının əsas yaradıcılarından biridir. Muxtar Auezov haqlı olaraq qazax ədəbiyyatının görkəmli klassiki kimi qəbul olunur. Onun çoxcəhətli yaradıcılığı qazax xalqının dərin mənalı və zəngin salnaməsi hesab edilir. Ümumiyyətlə, Muxtar Auezov qazax xalqının milli iftixarı, türk dünyası ədəbiyyatının yeni zirvəsi, dünya ədəbiyyatının gerçək faktıdır." (16. s.3)

İsa Həbibbəyli "Böyük qazax mütəfəkkiri Abay və Azərbaycan" başlıqlı məqaləsində yazır: "Qazax ədəbiyyatının əsas yaradıcılarından biri olan Abay Kunanbayev çoxcəhətli yaradıcılıq fəaliyyətinə malikdir. O, çoxsaylı lirik və satirik şeirlərin, bir sıra liro-epik poemaların, maarifçi realist şeirlərin müəllifidir. Dünyagörüşü etibarilə maarifçi olan Abay Kunanbayevin bütün əsərləri həyatdakı ictimai ədalətsizliklərin tənqid edilməsinə, nadanlıq və cəhalətin aradan qaldırılmasına, elm və maarifin təbliğinə həsr olunmuşdur."(15.)

Sosializm ideologiyası dövründə Azərbaycan xalqının mütəfəkkirlərindən biri Ə.B.Hüseynzadənin naşiri və baş redaktoru olduğu "Füyuzat" orqanını "Molla Nəsrəddin"ə qarşı qoyur, "Füyuzat"ı Azərbaycan xalqının düşməni olan bir mətbu orqanı kimi qələmə verirdilər. İsa müəllim "Füyuzat"a atılan bu böhtanların, ləkələrin üstündən qara xətt çəkərək yazır:

"Sovet ideologiyasının hakim olduğu illərdə yanlış olaraq "Molla Nəsrəddin"-lə "Füyuzat" jurnallarını bir-birinə zidd mövqeydə dayanan mətbuat orqanları kimi qələmə vermişlər. "Füyuzat" və "Molla Nəsrəddin" jurnallarının yolları, üsulları fərqli idi, qayələri, nəticələri, ammalları, idealları yaxın, bir çox hallarda eyni idi. Cəlil Məmmədquluzadə və Əli Bəy Hüseynzadə Azərbaycanın qoşa dayanan yüksək zirvələridir, elmimizi, ədəbiyyatımızı, mədəniyyətimizi çiyinlərində bu günlərə çatdıran qoşa sütunlardır, nəhəng, çoxparlaq simalardır. Bu böyük mütəfəkkirləri birləşdirən və yaxınlaşdıran kifayət qədər yaxın amallar və amillər vardır"(17,s.486).

Nəticə: Canlı, ədəbi proseslə yanaşı hər zaman İsa Həbibbəyli ədəbiyyat tarixini təhlil və tədqiq edir. Azərbaycan ədəbiyyatının hər bucağına nəzər yetirir, imkanı daxilində özünəməxsus şəkildə istər klassiklərimizin, istərsə də müasirlərimizin elmi-bədii irsinə yeni çalarlarla, yeni vasitələrlə aydınlıq gətirir, sovetlər dönəmində paslı qıfıllarla bağlanmış sandıqları açır, onları oxucusuna olduğu kimi təqdim edir. Azərbaycan ədəbiyyatı tarixinin və nəzəriyyəsi problemlərinin tədqiqi İsa Həbibbəylinin ədəbiyyatşünaslıq fəaliyyətində ön cərgədə dayanır. Azərbaycan ədəbiyyatının tarixi inkişaf xüsusiyyətlərini azərbaycançılıq konsepsiyası hərəkətilə qarşılıqlı əlaqədə təhlil, ədəbi prosesin yüksəliş meyllərinin ümumiləşdirilməsi, bu meyllərin dövrləşmə təsnifatı ilə konkret ifasının dürüstlüklə təyini İsa Həbiyyəlinin elmi fəhminin işıqlı şəkildə təzahürüdür. Ədəbiyyatşünas alim Azadə Rüstəmova ürək yanğısı ilə vaxtilə M.Y.Quluzadənin X.H.Koroğlu ilə birgə yazdığı bir oçerkin "Azərbaycanda ədəbiyyat" sərlövhəsilə oxuculara təqdim edildiyini qeyd edir. (18, s.468)

İsa müəllim "Ədəbiyyatda azərbaycançılıq konsepsiyası və dövrləşmə təsnifatı", eyni zamanda "Azərbaycançılıq analitiklik və kreativlik" əsərlərini yazmaqla "Azərbaycanda ədəbiyyat" deyil, Azərbaycan ədəbiyyatının dünya xalqlarının ən qüdrətlilərinin sırasında yer tutduğunu təkzibolunmaz dəlillərlə subuta yetirir.

Təsadüfi deyil ki, 2019-cu il 21 oktyabrda Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasında alimin anadan olmasının 70 illiyinə həsr olunan "Naxçıvan ədəbi mühiti akademik İsa Həbibbəylinin tədqiqatlarında" mövzusunda tədbir keçirilmişdi. Tədbirdə "İsa Həbibbəyli yaradıcılığında Cəlilşünaslıq" mövzusundakı məruzə ilə çıxış edən Naxçıvan Dövlət Universitetinin dosenti İman Cəfərli akademik İsa Həbibbəylinin yaradıcılığının böyük bir hissəsinin dahi satira ustası Cəlil Məmmədquluzadə irsinin tədqiqinə və nəşrinə həsr olunduğunu vurğulamış, İsa müəllimin "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" adlı fəlsəfə doktoru dissertasiyasında, eləcə də "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı doktorluq dissertasiyasında demokrat yazıçının ədəbi portreti mühüm yer tutmağından söz açmış, bu mövzuda görkəmli akademikin "Cəlil Məmmədquluzadə", "Zamanın dühası", "Seçkin Azərbaycan yazarı Cəlil Məmmədquluzadə", "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı bir-birindən qiymətli monoqrafiyaları, ümumilikdə, Azərbaycan ədəbiyyatşünaslıq elminin mühüm nailiyyətlərindən sayıla biləcək sanballı elmi əsərləri olduğunu qeyd etmişdi. Tədbirdə iştirak edən digər elm, sənət adamları İsa müəllimi təbrik edib, ona fədakar elmi-ictimai fəaliyyətində uğurlar arzulamışdılar. Tədbirin sonunda İsa müəllim 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevə və Naxçıvanda 70 illik yubileyinin geniş şəkildə qeyd edildiyi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova dərin minnətdarlığını bildirərək, ədəbiyyat nümayəndələrinə gələcək fəaliyyətlərinin təşkili istiqamətində dəyərli tövsiyələr verib, onlara yeni yaradıcılıq uğurları arzulamış və alim 9 cilddə "Molla Nəsrəddin" jurnalını Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinə hədiyyə etmişdi.

İsa müəllimin yaradıcılıq üfiqləri geniş olduğu qədər də pedoqoji fəaliyyəti müstəsnadır. O. Naxçıvan Dövlət Universitetindən başlayaraq Azərbaycanın bir çox ali təhsil ocaqlarında mühazirələr oxumuşdur. Onun oxuduğu mühazirələr təbii ki, tələbələrin elmi fəhminin işıqlanmasına böyük təsir göstərmişdir. Lakin İsa müəllimin məziyyətləri bununla da bitmir. Onun elmi rəhbərliyi altında 7 elmlər doktoru, 39 fəlsəfə doktoru yetişmişdir ki, onlar Azərbaycan ədəbiyyatına böyük xidmətlər göstərmiş və göstərməkdədilər. Lakin İsa müəllimin fəzilətləri bununla da bitmir. O, olduqca xeyirxah, alicənab, yüksək-mənəvi keyfiyyətlərə, zəngin təbiətə malik, gözəl bir insandır. O,Azərbaycan ədəbiyyatına, Azərbaycan elminə xidmət göstərən hər kəsə yardım əlini uzatmağa hazırdır və bunu dəfələrlə nümayiş etdirmiş və əsl azərbaycanlı kişisi kimi hər kəsə örnək olmuşdur. Bu yaxında İsa müəllim Gürcüstan Milli Elmlər Akademiyası Ümumi yığıncağının 10 iyul 2024-cü il tarixli qərarı ilə bu qurumun xarici üzvü seçilmişdir. Bu məqsədlə Tbilisi şəhərində Gürcüstan MEA Rəyasət Heyətinin genişləndirilmiş iclası keçirilmişdir. Belə ki, İsa müəllimin Gürcüstana səfəri çərçivəsində iki ölkənin Milli Elmlər Akademiyaları arasında əməkdaşlıq memorandumu imzalanmışdır..Memoranduma hər iki ölkənin milli və dövlətçilik maraqlarına cavab verən birgə tədqiqatların aparılması, layihələrin hazırlanıb həyata keçirilməsi, zəruri ixtisaslar üzrə elmi kadrların hazırlanmasına və mübadiləsinə dəstək verilməsi, müştərək elmi konfransların və seminarların təşkili, elmi nəşrlərin mübadiləsi və sair kimi mühüm məsələlər daxildir.

Möhtərəm İsa müəllim! Siz bizim həm müəllimimiz, həm ustadımız, həm də ağsaqqalımızsız! Biz sizdən öyrənmişik, öyrənirik və inşallah həmişə öyrənəcəyik! Sizin yaradıcılıq üfüqləriniz o qədər genişdir ki, ucu-bucağı görünmür! Siz lap yeniyetmə vaxtlarınızdan Azərbaycan ədəbiyyatına xidmət göstərmisiz və göstərməkdəsiz. Lakin bu hamısı deyil! Siz yüksək mənəvi keyfiyyətlərə, nəcib sifətlərə malik, mənəvi cəhətdən çox zəngin, gözəl bir şəxsiyyətsiz! Dövlətimiz də sizin bu xidmətlərinizi lazımınca dəyərləndirmiş və qiymətləndirmişdir. Sizin haqqınızda yazıblar, yazırlar və inşallah yazacaqlar! Siz Azərbaycan ədəbiyyatı xəzinəsinə bəxş edilmiş ləl-cəvahirsiz! Bu yaxında sizin 75 illik yubileyiniz olacaq! Sizi səmimi qəlbdən təbrik edirik əziz İsa müəllim! Uca Allah sizə uzun ömür, polad cansağlığı versin! Qoy Azərbaycan ədəbiyyatı üzərində alışdırdığınız məşşəllər hələ uzun illər daha da işıqlansın və bütün dünyaya Azərbaycan həqiqətlərini bəyan etsin!

### *Ədəbiyyat:*


*1. İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri". Bakı-"Elm"-2019. səh 3.*

*2. Bəkir Nəbiyev "Hərənin öz yolu var" "Çinar-Çap" Bakı-2008. 466 s.*

*3. Bəkir Nəbiyev "Xəzan Vurmasın" Bakı-2008.452 səh.*

*4. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Molla Nəsrəddin" ensiklopediyası Bakı-"Elm"-2020. 407 səh.*

*5. İsa Həbibbəyli " Azərbaycan Ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" Bakı-"Elm"-2019.*

*6. İsa Həbibbəyli "Ədəbi tarixi yaddaş və müasirlik" Bakı-"Nurlan"-2007. səh 616.*

*7. Teymur Kərimli "Şərqin qapısından dünaya" "Çaşıoğlu"-2009.192 səh.*

*8. Gülbəniz Babayeva AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru. 5252022fevral781111.htm*

*9. "Kitabi-Dədə Qorqud" eposu: Heydər Əliyevdən - İlham Əliyevə" kitabının məsul redaktoru, filologiya üzrə fəlsəfə doktoru Töhfə Talıbovadır. https: science.gov.azaznewsopen24936*

*10.https:edebiyyatqazeti.aznewssienc e6905-dedem-qorqud-azerbaycan-edebiyyatinin-homeri*

*11. Teymur Kərimli "Şərqin qapısından dünyaya" "Çaşıoğlu"-2009.192 səh*

*12. İsa Həbibbəlyi "Ədəbiyat qəzeti" "Azərbacançılıq konsepsiyası" 15. 07. 2019.*

*13. İsa Həbibbəyli "Böyük qazax mütəfəkkiri Abay və Azərbaycan", "Müqayisəli ədəbiyyatşünaslıq", Bakı-2020, №2.*

*14. Müəllif: İsa Həbibbəyli, AMEA-nın prezidenti, Milli Məclisin deputatı, akademik Mənbə: 525-ci qəzet.*

*15. Həbibbəyli İ. "Böyük qazax mütəfəkkiri Abay və Azərbaycan". "Müqayisəli ədəbiyyatşünaslıq" məc., 2020, s.12.*

*16. İsa Həbibbəyli. "Muxtar Auezov yaradıcılığı: ənənədən novatorluğa" kitabına ön sözdən, "Şərq-Qərb", 2019.*

*17. İsa Həbibbəyli. "Ədəbi şəxsiyyət və zaman" Əsərləri 10 cilddə, II cild. Bakı, "Elm və Təhsil". 2017. s 486.*

*18. R.Azadə "Mənəvi dünənimiz bu günün işığında" Bakı-"Elm"-2011. 596 səh.*



***Vüqar ƏHMƏD,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor.***